# Abunə olun

## PEŞƏ TƏHSİLİ PROQRAMLARINA QEYDİYATDAN KEÇİN

## 22 MAY - 10 SENTYABR

განათლებისა და მეცნიერების სამინისტრო

პროფესიული უნარების სააგენტო

Peşə təhsili almaq istəyən müraciətçilərin qeydiyyatı üçün təlimatlar

- www.vet.emis.ge saytında qeydiyyatdan keçin
- Avtorizasiyadan keçin və "peşə təhsili proqramı" adlanan qırmızı bloka daxil olaraq istədiyiniz proqramı və ya proqramları seçin.

**Qeydiyyat zamanı diqqət yetirməli olduğunuz məlumatlar:**

- Eyni anda maksimum 3 proqram seçə bilərsiniz;
- Proqram seçimində ardıcıllığın əhəmiyyəti yoxdur;
- Proqram haqqında məlumatı təsvir hissəsindən əldə edə bilərsiniz.

### Proqrama qeydiyyatdan keçərkən təhsil səviyyəsi ilə bağlı tələblərə diqqət yetirin. Seçdiyiniz proqrama qəbul üçün ilkin şərtlər belədir:

- Müraciətçilər baza təhsil pilləsini yəni 9-cu sinfi bitirmiş olmalıdır;
- Müraciətçilər tam ümumi təhsil pilləsini yəni 12-ci sinfi bitirmiş olmalıdır.

Bəzi proqramlara qəbul üçün əlavə şərtlər haqqında təsvir hissəsində məlumat verilmişdir. Məsələn, sağlamlıq haqqında arayış, yaş və.s.

Qeydiyyat zamanı proqramın növü və onun həyata keçirildiyi yerə diqqət yetirin.

Əgər siz baza, orta, ikili və ya xarici dil proqramını seçsəniz, siz seçim müsabiqəsindən bilavasitə proqramı həyata keçirən təhsil müəssisəsində keçəcəksiniz.

Bu proqramların seçilməsi haqqında əlavə məlumatı qeydiyyat sistemindən və ya birbaşa universitetdən əldə edilə bilərsiniz. Ali peşə proqramlarına namizədlər Milli İmtahan Mərkəzinin təşkil etdiyi test əsasında seçiləcək. Lakin, proqramı həyata keçirən təhsil müəssisəsi əlavə şəxsi qəbul mexanizmindən də istifadə edə bilər. Peşə təhsili üzrə gürcü, rus, erməni və Azərbaycan dillərində test imtahanı vermək mümkündür. Müraciətçi xarici dildə imtahan verdiyi təqdirdə, əvvəlcə gürcü dili modulunda təhsil alacaq , daha sonra isə istədiyi proqram üzrə təhsilini davam etdirəcək.

Əgər siz qeyri-gürcü dillisinizsə, proqrama qeydiyyatdan keçərkən sınaq/seçim dili kimi Azərbaycan, erməni və ya rus dilini seçə bilərsiniz ki, bu da sizə seçdiyiniz dildə seçim prosedurlarından keçmək imkanı verəcək. Qeydiyyatdan keçdikdən sonra altı aylıq gürcü dili kursu keçmək imkanınız olacaq.

## Hansı halda Milli İmtahan Mərkəzində test imtahanından azad olursunuz:

- Əgər siz xaricdə yaşayan həmvətən statusuna malik xarici dövlət vətəndaşısınızsa;
- Gürcüstan vətəndaşısınız, 2023-ci ildə başqa bir ölkədə məktəbi bitiribsiniz və sizə verilən sənəd Gürcüstan Təhsil Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəz tərəfindən tanınmışdırsa;
- Gürcüstan vətəndaşısınız və ya Abxaziya Muxtar Respublikasında və Sxinvali bölgəsində qanuni şəkildə yaşayırsınız və neytral şəxsiyyət vəsiqəniz varsa. 2023-ci ildə işğal edilmiş ərazidə ümumtəhsil müəssisəsini bitiribsiniz və təhsiliniz Gürcüstan Təhsil və Elm Nazirliyinin müəyyən etdiyi qaydalara uyğun olaraq tanınmışdırsa;
- Əgər siz sığınacaq axtaran şəxssinizsə, qaçqın və ya humanitar statusa maliksinizsə.

## Qeyd:

Müvəffəqiyyətli bir şəkildə qeydiyyatdan keçdiyiniz təqdirdə, e-poçt ünvanınıza bir qeydiyyat kartı, mobil telefonunuza isə imtahan kartını və daha sonra nəticələri yoxlamaq üçün xüsusi bir kod göndəriləcək.

Kartda imtahanın yerinə, tarixinə və vaxtına diqqət yetirin.

Xatırladaq, ki siz seçdiyiniz proqram və ya proqramları 10 sentyabra qədər dəyişə bilərsiniz.

Xüsusi təhsil ehtiyac halında, alternativ yanaşmadan faydalanmaq üçün qeydiyyatdan keçərkən müvafiq bölməni işarələməyi unutmayın. Seçim mərhələsi başa çatdıqdan sonra qeydiyyat mərhələsi başlayır. Sizin şəxsi səhifənizdə seçilmiş bütün proqramlar üzrə reytinqiniz ayrıca qeyd olunacaq. Əgər siz seçim müsabiqəsi əsasında heç olmasa bir proqrama qəbul olmaq hüququ əldə edibsinizsə, müvafiq sənədləri təqdim etməli və müqaviləni imzalamalısınız.

Əgər siz bir neçə proqram arasında seçim etməli olsanız, yalnız bir proqramın tələbəsi ola biləcəyinizi nəzərə alın. Əgər reytinq əsasında qəbul olan müraciətçi ortaya çıxmazsa, təhsil müəssisəsi reytinqə uyğun olaraq növbəti müraciətçiyə vakant yer təklif edəcək.

Qəbul prossesi başa çatdıqdan sonra, istədiyiniz proqrama düşə bilməsəniz, yenidən qəbul olmaq şansınız olacaq. Təhsil müəssisələri tərəfindən yerləşdirilən boş yerlər şəxsi səhifənizdə qeyd olunacaq. Müəyyən olunan müddət ərzində yenidən 3-dən çox proqram seçə bilməcəksiniz.

**Odur ki, şəxsi səhifənizi izləyin və müddətləri kontrol edin!**

# Müvəffəqiyyətlər arzulayırıq!

VET.EMIS.GE